***Press-reliz***

| | |
|---|---|
| *Tarix* | **25 aprel 2023-ci il** |
| *Əlaqə məlumatları* | **Aysel Süleymanova**<br>Marketinq, Kommunikasiyalar və Biznesin İnkişafı üzrə Rəhbər, PwC firmasının Azərbaycan Respublikasında Filialı<br>Tel: +994124972515<br>E-poçt: aysel.suleymanova@pwc.com |
| *Səhifə* | 2 |

## PwC Azərbaycan Bakıda keçirilən "Global HR Summit"də iştirak edib

Aprelin 20-də Bakıda Azərbaycan HR İnstitutunun təşkilatçılığı və "PwC Azərbaycan" şirkətinin tərəfdaşlığı ilə "Global HR Sammit 2023" tədbiri keçirilib. "PwC Azərbaycan" şirkətinin Ölkə üzrə İdarəedici Partnyoru Mövlan Paşayev "CEO-ların Strateji HR perspektivləri" mövzusunda panel müzakirəsində iştirak edib.

Tədbir zamanı Mövlan Paşayev PwC-nin HR Strategiyası, işə qəbul prosesində müxtəliflik və inklüzivlik siyasətinin əhəmiyyəti, eləcə də insanların rifahı və həyat keyfiyyəti ilə bağlı məsələlərdə iştirakı ilə bağlı öz fikirlərini bölüşüb.

"İnsanlarımız bütün fəaliyyətlərimizin mərkəzindədir və məqsədimiz hər kəsin öz potensialını tam reallaşdıra bilməsini təmin etməkdir. İşçilərin məhsuldarlığını, motivasiyasını və məşğulluğunu təmin etmək üçün hər kəsin özünü zəruri hiss etdiyi mühitin yaradılması vacibdir", - deyə cənab Paşayev bildirib.

PwC-də biz şirkətlərin strateji biznes və insan resursları məqsədləri ilə bağlı ehtiyaclarına və məqsədinə cavab verən funksional HR strategiyalarını nəzərdən keçirmək, uyğunlaşdırmaq və təkmilləşdirmək üçün müştərilərlə əməkdaşlıq edirik. Bunun əsasında gələcəkdə insan resurslarının idarə edilməsi funksiyası ilə bağlı daha geniş HR strategiyasına uyğun dəyişikliklər müəyyən edilir.

*© 2023 PwC. All rights reserved.*

*At PwC, our purpose is to build trust in society and solve important problems of our clients. We achieve this by offering client centric solutions in tax, legal, assurance and advisory from strategy through execution. Over 150 professionals from 4 countries working in PwC Azerbaijan share their thinking, values, experience and solutions to develop fresh perspectives and practical advice for our clients. We are a network of firms in 156 countries with more than 295,000 people who are committed*

*to delivering quality in assurance, advisory and tax services. Find out more and tell us what matters to you by visiting us at www.pwc.com/az*